*"Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir".*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 29 aprel 2015-ci il № 32 (1948) Qiyməti 25 qəpik


## Rəsmi xronika

***✓Aprelin 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və ölkəmizdə işgüzar səfərdə olan Fransa Respublikasının Prezidenti Fransua Ollandın görüşü olub.***

***Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin hazırkı səviyyəsindən məmnunluq ifadə olundu. Əlaqələrimizin dinamik inkişaf etdiyi bildirildi. Son illərdə dövlət başçılarının qarşılıqlı səfərlərinin ikitərəfli münasibətlərin daha da inkişafına təkan verdiyi vurğulandı.***

***Söhbət zamanı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində danışıqların son vəziyyəti ilə bağlı geniş fikir mübadiləsi aparıldı. Azərbaycan Prezidenti İlham Əliyev Fransa Prezidenti Fransua Ollandın münaqişənin həlli istiqamətində göstərdiyi fəallıqdan məmnunluğunu ifadə etdi.***

* * *

***✓Aprelin 26-da Azərbaycanın və dünyanın idman tarixində əlamətdar hadisə baş verdi. Bakıda birinci Avropa Oyunlarının məşəli alovlandırıldı.***

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı, birinci Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva, ailə üzvləri və Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikki mərasimdə iştirak ediblər.***

***Ölkəmizin müstəqillik tarixində ev sahibliyi edəcəyi mötəbər tədbir - birinci Avropa Oyunları beynəlxalq idman ictimaiyyətinin diqqət mərkəzindədir.***

***Aprelin 26-sı isə ilk Avropa Oyunlarının həyəcanının başlanğıc günü kimi tarixə düşür. Olimpiya ənənəsinə uyğun olaraq, estafet qədim od məbədi olan Atəşgahdan başlayır. Birinci Avropa Oyunlarının məşəli 47 gün ərzində Azərbaycanın hər bir guşəsini gəzib-dolaşaraq, Oyunların açılış mərasimində Bakı Olimpiya Stadionuna gətiriləcək.***

***Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə çıxış edib.***

* * *

***✓Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 27-də Malta Respublikasının Baş naziri Cozef Muskatı qəbul edib.***

***Görüşdə Bakıda keçirilən III Qlobal Açıq Cəmiyyətlər Forumunun önəmi qeyd olundu, ölkələrimiz arasında əməkdaşlığın müxtəlif sahələrdə inkişafı, regionda baş verən proseslər və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.***

* * *

***✓Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 27-də Fransanın Yəhudi İnstitutlarının Təmsilçilik Şurasının prezidenti Rocer Çukermanın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.***

***Dövlətimizin başçısı Rocer Çukermanın ölkəmizə səfərinin məhsuldar və keçirilən görüşlərin uğurlu olacağına ümid etdiyini bildirdi. Prezident İlham Əliyev səfərin Azərbaycan-Fransa əlaqələrinin daha da genişləndirilməsi baxımından əhəmiyyətini qeyd etdi.***

**AZƏRTAC-ın materialları əsasında**

# Azərbaycan Prezidenti İlham Əliyev III Qlobal Bakı Forumunun açılışında iştirak edib

***Aprelin 28-də Azərbaycanın paytaxtında III Qlobal Bakı Forumu işə başlayıb.***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Forumun rəsmi açılış mərasimində iştirak edib.

Misirin İsgəndəriyyə Kitabxanasının direktoru İsmail Serageldin budəfəki Forumun mövzusunun yeni dünya düzənində etimadın qurulmasına həsr olunduğunu bildirdi, tədbirə onlarla ölkədən yüksək səviyyəli nümayəndə heyətlərinin gəldiyini diqqətə çatdırdı.

Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə nitq söylədi. Dövlətimizin başçısı belə bir mühüm beynəlxalq tədbirin Bakıda keçirilməsindən məmnun olduğunu dedi. Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin qısa vaxtda mühüm təsisata çevrildiyini deyən Azərbaycan Prezidenti onun müzakirə etdiyi məsələlərin çoxtərəfli olduğunu diqqətə çatdırdı.

Azərbaycanın əsrlər boyu Şərq ilə Qərb arasında körpü olduğunu deyən Prezident İlham Əliyev ölkəmizdə müxtəlif dinlərin nümayəndələrinin mehriban şəraitdə yaşadıqlarını bildirdi. Qeyd etdi ki, artıq Azərbaycan multikulturalizm mərkəzinə çevrilib və ölkəmiz müstəqillik baxımından gənc olsa da, ötən dövrdə mühüm nailiyyətlər qazanıb. Bu gün Azərbaycanda uğurlu islahatların həyata keçirildiyini, bütün azadlıqların təmin olunduğunu deyən dövlətimizin başçısı ölkədə hüquqi sistemin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlərin görüldüyünü bildirdi. "Azərbaycan beynəlxalq aləmdə də öz yerini tutub, ölkəmiz bir çox mötəbər beynəlxalq qurumların üzvüdür", - deyən Prezident İlham Əliyev vurğuladı ki, bir neçə il öncə 155 ölkənin səsi ilə BMT Təhlükəsizlik Şurasının üzvü seçilən ölkəmiz beynəlxalq münasibətlər sisteminə öz töhfəsini verir. Hazırda dünyada ikili standartların bir qaydaya çevrildiyini, ölkəmizin işğal olunmuş ərazilərinin azad edilməsi ilə bağlı BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi qərarların icra olunmadığını deyən dövlətimizin başçısı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində üzləşdiyimiz çətinliklərdən danışdı, münaqişənin həlli ilə bağlı ölkəmizin qəti mövqeyini açıqladı. Son 10 ildə ölkəmizin iqtisadi baxımdan sürətlə inkişaf etdiyini, qeyri-neft sektorunun iqtisadiyyatda çəkisinin artdığını, əlverişli biznes mühitinin qurulduğunu və Azərbaycanın xarici sərmayələr üçün açıq ölkəyə çevrildiyini deyən Prezident İlham Əliyev işsizliyin, yoxsulluğun azaldılması istiqamətində görülən tədbirlərin davam etdirildiyini bildirdi. Kosmos sənayesinə malik Azərbaycanın iqtisadi nailiyyətlərinin müstəqil xarici siyasət yürütməyə imkan verdiyini vurğuladı. Enerji təhlükəsizliyinə gəlincə, Prezident İlham Əliyev bildirdi ki, bu sahədə şaxələndirilmə siyasəti davam etdirilir, ölkəmizdə hasil olunan enerji resurslarının xarici bazarlara ötürülməsi üçün yeni marşrutlar çəkilir.

Prezident İlham Əliyev ölkəmizdə təhsilin inkişafı ilə bağlı görülən işlərdən də danışdı. "Bizim üçün təhsil müasirliyə və inkişafa aparan yoldur", - deyən dövlətimizin başçısı bir daha Forumun işinə uğurlar arzuladı.



Bolqarıstan Prezidenti Rosen Plevneliyev dünyadakı böhranların rekord həddə çatdığını dedi. Müasir dünyanın çağırışlarına toxunan dövlət başçısı qanunun aliliyinin təmin olunmasının, böhranların həllinin, qeyri-qanuni miqrasiyanın, terrorçuluğun qarşısının alınmasının vacibliyinə diqqəti cəlb etdi. "Sülh qanunun aliliyidir", - deyən Rosen Plevneliyev indi dondurulmuş böhranların sayının artdığını bildirərək dünyada davamlı nizam-intizama nail olunmasının zəruriliyini diqqətə çatdırdı.

Makedoniya Prezidenti George İvanov çıxışında Avropa İttifaqının dəyərlərinə toxundu, bu qurumun yaratdığı dəyərlərin qitəni əhatə edən ölkələrin hər birində bərabər qaydada paylanmasının vacib olduğunu bildirdi. Avropa İttifaqının genişlənmə siyasətinin xeyli ləngidiyini deyən dövlət başçısı bu qurumun hələ də dünya nizamında layiqli yer uğrunda mübarizə apardığını dedi.

Maltanın Baş naziri Cozef Muskat dünyanın və cəmiyyətlərin dəyişdiyi indiki vaxtda ölkəsində həyata keçirilən islahatlardan danışdı, hazırda dünyanı narahat edən miqrasiya probleminin artıq ciddi fəsadlarının olduğunu dedi. Bu problemin həll olunmadığı təqdirdə onun Avropada böhrana səbəb ola biləcəyi ehtimalını irəli sürdü.

Sonra Almaniyanın Federal Kansleri Angela Merkelin və Böyük Britaniyanın Baş naziri Devid Kemeronun Foruma ünvanladığı məktublar oxundu. UNESCO-nun baş direktoru İrina Bokova və BMT-nin keçmiş baş katibi Butros Butros-Qali öz videomüraciətlərində Forumun işinə uğurlar arzuladılar, burada müzakirə edilən məsələlərin dünya üçün əhəmiyyətli olduğunu bildirdilər.

İsmail Serageldin ABŞ-ın sabiq dövlət katibi Henri Kissincerin salamlarını Forum iştirakçılarına çatdırdı, onun da bu Forumun işinə böyük əhəmiyyət verdiyini bildirdi.

Latviyanın keçmiş Prezidenti, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri Vayra Vike-Freyberqa da çıxışında miqrasiya probleminin həlli istiqamətində təsirli addımların atılması vaxtının yetişdiyini dedi. Bundan əlavə, insanlar arasında ayrı-seçkiliyin aradan qaldırılması ilə bağlı tədbirlərin də görülməsinin vacibliyinə diqqəti cəlb etdi. Bu ideyalar uğrunda mübarizənin daha güclü xarakter almasının zəruri olduğunu dedi. Vayra Vike-Freyberqa müxtəlif fikirləri dinləyərək ortaq məxrəcə gəlinməsi baxımından Bakı Forumunun əhəmiyyətli məkana çevrildiyini bildirdi, bu proseslərin uğurlu alınmasında Prezident İlham Əliyevin rolunu və xidmətlərini xüsusi vurğuladı.

Xatırladaq ki, üçüncü dəfə Bakıda keçirilən Foruma Nizami Gəncəvi Beynəlxalq Mərkəzi, Madrid Klubu və Roma Klubunun üzvü olan sabiq dövlət və hökumət rəhbərləri, tanınmış ictimai və siyasi xadimlərdən ibarət 200-ə yaxın nümayəndə qatılıb. Aprelin 30-dək davam edəcək tədbirdə nüfuzlu siyasi liderlər qloballaşmanın geniş vüsət aldığı bir dövrdə dünyanı narahat edən məsələlər - etnik və digər zəmində baş verən münaqişələr, terror təhdidləri, demokratiyanın inkişafı, təhsil, ekologiya və digər sahələrdə mövcud problemləri geniş müzakirə edəcək, onların aradan qaldırılması istiqamətində qarşıda duran mühüm vəzifələrlə bağlı fikir mübadiləsi aparacaqlar.

**AZƏRTAC**

## Çanaqqala zəfəri türk və Azərbaycan xalqlarının birliyinin, igidliyinin və məğlubedilməzliyinin parlaq rəmzidir

***Çanaqqala zəfəri türk və Azərbaycan xalqlarının birliyinin, igidliyinin və məğlubedilməzliyinin parlaq rəmzidir. Onun 100 illiyini təkcə qardaş xalqlarımız deyil, bütün türk dünyası qeyd edir. Bu sözləri Azərbaycanın Ukraynadakı səfiri Eynulla Mədətli ölkəmizin Kiyevdəki diplomatik nümayəndəliyində bu əfsanəvi döyüşün 100 illik yubileyinə həsr olunmuş tədbirdə Türkiyə kinematoqrafçılarının "Çanaqqala-1915" bədii filminə baxışdan əvvəl səsləndirib.***

Uğurlu döyüşlərdən və işğalçılar üzərində parlaq qələbələrdən biri kimi tarixi salnamələrə daxil olan bu döyüşdən ətraflı söz açan səfir xatırladıb ki, bu savaşda təqribən üç min azərbaycanlı həlak olub. O vurğulayıb ki, Çanaqqala döyüşünün nəticəsi türk və Azərbaycan xalqlarının əzmkarlığını möhkəmləndirib. Diplomat dünya ermənilərinin türk və Azərbaycan xalqlarına qarşı münasibətdə təbliğat terroruna, onların qondarma "erməni soyqırımı" ilə bağlı böhtanlarına qarşı mübarizəni əlaqələndirməyə çağırıb.

Türkiyənin Ukraynadakı səfiri Yonet Can Tezel bildirib ki, türk xalqı sonrakı hərbi əməliyyatların taleyini həll etmiş və Birinci Dünya müharibəsinin gedişatına təsir göstərmiş Çanaqqala döyüşündə türk ordusu sıralarında döyüşən və qəhrəmanlıqla həlak olan Azərbaycan oğullarının misli görünməmiş hünərini həmişə dərin minnətdarlıq hissi ilə xatırlayacaq. İki ölkə arasında tarixi qohumluq və qardaşlıq münasibətlərini xarakterizə edən Türkiyə səfiri Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin "Bir millət, iki dövlət" kəlamını səsləndirib.

Sonra "Çanaqqala-1915" filminin nümayişi olub.

Tədbirdə türk dövlətlərinin Kiyevdəki səfirliklərinin nümayəndələri, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Ukraynadakı nümayəndəliyinin əməkdaşları, Azərbaycan və türk diaspor təşkilatlarının rəhbərliyi və fəalları, Ukrayna ictimaiyyətinin təmsilçiləri iştirak ediblər.

**AZƏRTAC**

## Azərbaycan ilə İran arasında müştərək müdafiə komissiyası yaradılacaq

***Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında müştərək müdafiə komissiyası yaradılacaq. Komissiyaya hər iki ölkənin müdafiə nazirləri rəhbərlik edəcəklər.***

Bu barədə İranın Azərbaycandakı səfiri Möhsün Pakayin ölkəsinin Müdafiə naziri Hüseyn Dehqanın Azərbaycana səfərinin yekunlarına dair yerli mətbuata açıqlamasında məlumat verib.

Səfir bildirib ki, komissiyaya hər iki ölkənin hərbi ekspertləri daxil ediləcək. Rəsmi Bakı ilə Tehran arasında müdafiə məsələləri üzrə müzakirələr bu komissiyada diqqət mərkəzində olacaq. Komissiyada, həmçinin regional təhlükəsizlik məsələləri də nəzərdən keçiriləcək.

Diplomat qeyd edib ki, İranın Müdafiə nazirinin Azərbaycanda keçirdiyi görüşlərdə əsas müzakirə mövzusu regional təhlükəsizlik məsələləri olub.

M.Pakayin səfərin uğurlu və tərəflər üçün faydalı keçdiyini diqqətə çatdıraraq müdafiə sahəsində daha geniş əməkdaşlıq əlaqələrinin qurulması üçün böyük perspektivin açıldığını vurğulayıb.

**AZƏRTAC**

Döyüş hazırlığı

# Müasir hərbi texnika bacarıqlı şəxsi heyətin ixtiyarındadır



## Naxçıvan Muxtar Respublikasının hava məkanı etibarlı müdafiə olunur

***Bu gün Əlahiddə Ümumqoşun Ordusunun hissə və bölmələrində xidmət edən şəxsi heyət ən çətin döyüş tapşırıqlarını bacarıqla yerinə yetirir. Hərbi qulluqçular təlimlərdə fəal iştirak edərək döyüş vərdişlərini daha da artırırlar.***



Hava Hücumundan Müdafiə təyinatlı hissə və bölmələrin əsas vəzifəsi düşmənin hava hücumu vasitələrinin zərbələrini dəf etmək, arxa cəbhədə qoşun və obyektlərin mühafizəsini təmin etməkdir. Bu qoşun bölmələrinin silahlanmasında müxtəlif təyinatlı, yüksək manevrli zenit-raket kompleksləri, atəşin idarə olunmasının avtomatlaşdırılmış sistemləri vardır. Bu vasitələr düşmənin təyyarələrini və digər hava hücumu vasitələrini bütün hündürlüklərdə, uçuşun "səsdən iti" sürətlərində, günün istənilən hava şəraitində məhv etmək bacarığına malikdir. Bu mənada Əlahiddə Ümumqoşun Ordusunun rəhbərliyi tərəfindən Naxçıvan Muxtar Respublikasının hava məkanının etibarlı qorunması işinin təkmilləşdirilməsinə ciddi fikir verilir.

Hava Hücumundan Müdafiə bölmələrindən birində məşğələyə cəlb olunan şəxsi heyət "OSA 1T" zenit-raket komplekslərinin döyüş vəziyyətinə gətirilməsini məşq edirdi. Bölmədə ilk həmsöhbətim Naxçıvan Muxtar Respublikasının hava məkanının müdafiəsində şərəfli döyüş yolu keçmiş zabitlərimizdən olan Rizvan İsmayılovdur. Təcrübəli zabitin sözlərinə görə, Hava Hücumundan Müdafiə sistemində digər silah və texnikalarla yanaşı, "OSA 1T" zenit-raket kompleksindən də yararlanmaq mümkündür. "Bir neçə gün əvvəl Əlahiddə Ümumqoşun Ordusunun Hava Hücumundan Müdafiə hissə və bölmələrinin döyüş atışlı taktiki təlimlərinin keçirilməsinə hazırlıq məqsədilə təlim mərkəzində OSA 1T zenit-raket komplekslərindən real olaraq sınaq atışları keçirildi", - dedi zabit. - Atış zamanı qarşıya qoyulan əsas məqsədə nail olundu. Sonda şəxsi heyətə komandanlıq tərəfindən təşəkkür elan edildi. Təbii ki, əldə etdiyimiz nailiyyətlər bizi arxayın salmamalı, istənilən döyüş tapşırığını daha əzmlə yerinə yetirməyə hazır olmalıyıq.

Hava Hücumundan Müdafiə bölməsində gündəlik xidmətin düzgün təşkil olunmasında peşəkar hərbi qulluqçuların, təcrübəli zabitlərin üzərinə mühüm vəzifələr düşür. Bu cür çətin və şərəfli vəzifələrin icrasında yüksək təcrübəyə malik olan zabitlərdən Rövşən Yusifovla həmsöhbət olduq. İki övlad atası olan Rövşən Yusifov bildirir ki, zabit ailələrinin mənzil-məişət şəraitinin daha da yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlərin nəticəsində mən də hərtərəfli şəraitə malik mənzillə təmin edilmişəm. "Evdə övladlarımı necə tərbiyə edirəmsə, onların Vətənə yararlı insanlar kimi yetişməsinə çalışıramsa, eyni ilə bölmədə də şəxsi heyətə ata qayğısı ilə yanaşır, onları Vətənin müdafiəsində mübariz olmağa çağırıram".

Əlahiddə Ümumqoşun Ordusunun birləşmə, hissə və bölmələrində əsgəri məişət-yaşayış kompleksləri müasir səviyyədə tikilərək şəxsi heyətin istifadəsinə verilir. Bütün bu yaradılan hərtərəfli şərait nəticəsində əsgərlərimiz özlərini rahat hiss edirlər. Bunu bölmədə mənimlə həmsöhbət olan kiçik çavuş Orxan Kərimli və kiçik çavuş Faiq Süleymanov da təsdiqlədilər. Adlarını çəkdiyim hərbi qulluqçular nümunəvi xidmət etdiklərinə görə çavuş hazırlığı kursuna cəlb edilib və kursun sonunda onlara kiçik çavuş hərbi rütbəsi verilib. Bacarıqlı manqa komandirləri bildirdilər ki, "Bir nəfər hamı, hamı bir nəfər üçün" şüarı gündəlik hərbi xidmətimizin əsasını təşkil edir.

Bölmənin sosial şəraiti ilə tanışlıqdan bu qənaətə gəlirəm ki, şəxsi heyətin yüksək əhval-ruhiyyədə olması yaradılan nümunəvi xidməti şəraitin və hərbi xidmətin düzgün təşkilinin nəticəsidir. Həmçinin, əsgəri dostluq, yoldaşlıq münasibətlərinin və milli həmrəylik ruhunun daha da gücləndirilməsi məqsədi ilə həyata keçirilən tədbirlər də artıq öz bəhrəsini verməkdədir.

Budur, bölmədə nahar vaxtıdır. Əsgərlərimizin yeməkxanaya nizam-intizamla daxil olduğunun, qida rasionunda nəzərdə tutulan yüksək kalorili ərzaqlarla qidalandığının şahidi oluruq.

Günəş qüruba enir, şəxsi heyət axşam idmanına hazırlaşır. Əlahiddə Ümumqoşun Ordusunun bütün birləşmə, hissə və bölmələrində olduğu kimi, burada da müasir idman infrastrukturu diqqətimi cəlb edir. Əsgərlərdən Kamil Adıgözəlovun sözlərinə görə, hələ məktəblilər arasında keçirilən yarışlarda qaliblər sırasına adını yazdırmağı bacarıb. Bu gün isə hərbi qulluqçular arasında təşkil olunan yarışlarda birincilik uğrunda mübarizə aparır. Şübhəsiz, yüksək fiziki hazırlıq şəxsi heyətin döyüş əzmini artıran əsas amillərdəndir.

**Nəriman NƏCƏFOV,**
**Naxçıvan**

# Peşəkarlıq yüksək olarsa...

***Hərbi hissəyə gələndə səhər yerbəyeri təzəcə başa çatmışdı. Şəxsi heyət təlim mərkəzinə çıxmağa hazırlaşırdı. Zabit və əsgərlərin üz-gözündən mübarizlik və əzmkarlıq oxunurdu.***



Polkovnik-leytenant Vilayət Quluyev keçirilən təlim-məşqlərdən, qazanılan uğurlardan söz açaraq bildirdi ki, tankçılarımızın döyüş hazırlığı yüksək səviyyədədir. Bu, belə də olmalıdır. Çünki torpaqlarımızın erməni işğalçılarından azad olunması bu gün biz hərbçilərin üzərinə düşür. Bu mühüm və müqəddəs vəzifəni yerinə yetirməyə hər an hazır olmalıyıq. Şəxsi heyət təsdiq olunmuş döyüş hazırlığı planına uyğun olaraq təlim-məşqlər keçir, hazırlığını artırır. Dünən tankçılarımız təlim mərkəzində məşğələ keçdilər. Sürücü-mexaniklər bu dəfə də maneələr zolağını məharətlə keçdilər. Tuşlayıcılar cəld və çevik hərəkətlər edərək hədəfləri dəqiq vurdular. Bu atış çalışması bir daha göstərdi ki, tankçıların döyüş hazırlığı istənilən tələblərə cavab verir.

Zabit bildirdi ki, Novruz bayramı ərəfəsində Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov bizim hərbi hissədə də olub, tankçılarımızla görüşüb söhbət edib. Müdafiə nazirinin cəbhə bölgələrinə belə səfərləri şəxsi heyətin döyüş ruhunu daha da artırır.

Mayor Babək Bayramovla birlikdə tankçıların yanına yollandıq. Yolboyu söhbət edən zabit bildirdi ki, tankçılarımız erməni işğalçılarından intiqam almaq hissi ilə yaşayırlar.

Söhbət yolumuzu xeyli qısaltdı. Yaşıllığa bürünmüş ərazidə təlim-məşq keçən tankçıların yanında bizi kapitan Rövşən Cəfərquluyev qarşılayaraq şəxsi heyətin təlim-məşqlərdə həvəslə iştirak etdiyini dedi. Onun sözlərinə görə, tankçılar müasir döyüş vərdişlərinə yiyələnir, təcrübələrini daim artırırlar.

Tankçıların məşğələsi öz axarı ilə davam edir. Bir anlıq dayanıb onların məşğələlərini izləyirik. Budur, kapitan təlim keçən şəxsi heyətə döyüş tapşırıqları verir. Komandanı eşidən kimi tankçılar cəld hərəkətlərlə zirehli texnikanın üzərinə çıxır, mühərrik işə düşür. Tankın gurultusu ətrafda əks-səda verir. Tuşlayıcılar hədəflərə dəqiq atəş açırlar. Əsgərlərin hərəkətlərindən hiss olunur ki, onlar peşəkardırlar.

Fasilə yarananda təlimdə fərqlənən tankçılarla görüşdüm. Tank komandiri gizir Alı Əliyev, müddətdən artıq həqiqi hərbi xidmət qulluqçuları sürücü-mexanik kiçik çavuş Müşfiq Kamranov, tuşlayıcı kiçik çavuş Rəcəb Məmmədovun üzü gülürdü. Onlar təlimdə bütün tapşırıqların öhdəsindən bacarıqla gəlmişdilər.

Tank komandiri dedi ki, döyüş hazırlığını artırmaq üçün təlim mərkəzində hər cür şərait yaradılıb. "Yaxşı başa düşürük ki, peşəkarlığımız, hazırlığımız nə qədər yüksək olarsa, qələbəni də o qədər asanlıqla qazanarıq".

**Mayor**
**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu",**
**foto müəllifindir**

Qabaqcıl təcrübə

# "Növbəti təlimə də ciddi hazırlaşırıq"

***"N" hərbi hissəsində rastlaşdığım işgüzar mühit, döyüş hazırlığı sahəsində görülən tədbirlər həmişə ürəyimdən olub. Artıq bir müddət sonra yenə həmin hərbi hissəyə, hava hücumundan müdafiəçilərimizin fəaliyyətini işıqlandırmağa gedirdim.***



Hərbi hissənin şəxsi heyəti tədris prosesindən ayrılmamaq şərtilə müəyyən edilmiş mövqelərdə hava hücumundan etibarlı müdafiəni təmin edirlər. Bu məqsədlə hava hücumundan müdafiəçilər gecə-gündüz demədən döyüş növbəsi aparırlar.

- Hazırda hava hücumundan müdafiəçilərimizin böyük əksəriyyəti plana uyğun olaraq döyüş və ictimai-siyasi hazırlıq məşğələlərində iştirak edir, - zabit Qamət Mahmudov bildirir. - Hazırlıqlı zabitlərimiz çoxdur və onlar qrup rəhbərləri kimi zenitçilərimizin peşəkarlığının artırılmasında mühüm rol oynayırlar.

Təbii ki, hərbi kollektivdə işgüzar mühiti yaradan ilk növbədə bacarıqlı və savadlı zabitlərdir. Zabit Mahmudovu çoxdan tanıyıram. Xidmət etdiyi bütün vəzifələrdə özünü bacarıqlı komandir, peşəkar hərbçi kimi göstərib. Ona görə xidmət pillələrini uğurla irəliləyib. Hazırda daha məsul vəzifəyə təyin edilib və bu vəzifənin qayğılarını məharətlə daşımaqdadır.

- Heç kəsə sirr deyil ki, bütün qoşun növlərində olduğu kimi, hava hücumundan müdafiəçilər də verilən döyüş tapşırığını müvəffəqiyyətlə yerinə yetirmək üçün lazımi peşə vərdişlərinə yiyələnməlidirlər, - zabit Mahmudov bildirdi. - Ona görə də döyüş hazırlığı məşğələlərində şəxsi heyət tərəfindən qazanılmış biliklərin praktik olaraq möhkəmləndirilməsi zəruridir. Müdafiə Nazirliyi tərəfindən təsdiq edilmiş döyüş hazırlığı planına uyğun keçirilən kompleks tədbirlər hava hücumundan müdafiənin səmərəli təşkili üçün möhkəm zəmin yaradır.

İxtisas hazırlığını və döyüş bacarığını yüksəltmək üçün hava hücumundan müdafiəçilər mütəmadi olaraq təlim bazasına ezam olunur və orada hərbi aviasiyanın intensiv uçuşlarında iştirak edirlər. Bütün bunlar hərbi qulluqçuların lazımi biliklərə və praktik vərdişlərə yiyələnməsinə imkan yaradır.

Hərbi hissədə nümunəvi bölmələrdən söhbət düşəndə baş leytenant Cavid Cəfərovun komandiri olduğu batareyanın adını ön sıralarda çəkdilər. Məlum oldu ki, bu batareya ilin birinci rübü ərzində əldə etdiyi nəticələrə görə birinci olub.

Bölmənin fəaliyyətilə yaxından tanış olmaq üçün zabit Mahmudovla əraziyə yollandıq. Hərbi hissənin hər yerində səliqə-sahman, əsgəri nizam-intizam gözə dəyir.

Avtomobil parkından bir qədər aralıda açıq səma altında bölmələrdən biri ilə qrup rəhbəri məşğələ aparır. Məşğələ şəxsi heyətin ixtisas hazırlığının yüksəldilməsinə həsr edilmişdi. Qrup rəhbəri baş leytenant Cavid Cəfərov dərsin mövzusunu anlaşıqlı bir tərzdə əvvəlcə izah etmişdi, indisə şəxsi heyətin bilik səviyyəsini yoxlayırdı.

- Batareyamızın sərəncamında olan silahlar düşmənin hava hədəflərinin məhv edilməsi üçün nəzərdə tutulub, - baş leytenant C.Cəfərov bizimlə söhbətində dedi. - Ancaq bu silahların taktiki-texniki xüsusiyyətlərini mükəmməl öyrənmək və döyüş şəraitində onlardan məharətlə istifadə etmək daha vacibdir. Biz əyani vasitələrdən yararlanmaqla zenitçilərimizin döyüş vərdişlərini yüksəltməyə çalışırıq.

Əlbəttə, şəxsi heyətin qazandığı nailiyyətlərdə komandirin əməyi daha çoxdur. Onu da qeyd etmək yerinə düşər ki, baş leytenant Cavid Cəfərov davamlı olaraq öz peşəkarlığını artırmaqla məşğuldur.

Baş leytenant Cavid Cəfərov Naxçıvan Muxtar Respublikası Babək rayonunun Kültəpə kəndində dünyaya gəlib. Yeniyetmə yaşlarından hərbi xidmətə maraq onu əvvəlcə Heydər Əliyev adına Hərbi Liseyə gətirib. Burada təhsilini başa vurduqdan sonra hərbi təhsilini davam etdirmək qərarına gəlib.



2009-cu ildə Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbini nümunəvi qiymətlərlə bitirən Cavid Cəfərov bir il təcrübəsini artırdıqdan sonra taqım komandiri kimi hərbi hissəyə göndərilib. Nümunəvi xidmətinə, hərbi intizamına və liderlik xüsusiyyətlərinə görə gənc zabit irəli çəkilərək batareya komandiri vəzifəsinə təyin edilib.

Bu ilin əvvəlindən onun komandiri olduğu bölmə göstərdiyi nəticəyə görə birliyin ən yaxşı bölməsi adını qazanıb. Hazırda batareya komandiri hərbi hissədə bacarığına və qabiliyyətinə görə özünəməxsus hörmət qazanıb.

Sonuncu məşğələ də göstərdi ki, batareyanın şəxsi heyəti öz vəzifələrinin öhdəsindən gəlməyi bacarır, - zabit C.Cəfərov deyir. - Zenitçilər öz silahlarından atış qaydalarını yaxşı bilirlər və verilən döyüş tapşırığını yerinə yetirməyə qadirdirlər.

Zabit yüksək döyüş hazırlığına malik hərbi qulluqçuların adlarını da qeyd etdi. Gizirlər Mahir Canəliyev, Ağəli Güləliyev, Seymur Allahverdiyev, Elməddin Abdullayev, müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu Rahim Abdüləzizov, əsgər Salman İsazadə və başqaları batareyanın uğurlarında əsas rola malikdirlər.

- Qarşıda bizi hava hücumundan müdafiəçilərin təlimi gözləyir, - zabit Cəfərov bildirir. - İnanırıq ki, şəxsi heyətin qazandığı bilik və döyüş vərdişləri növbəti təlimdə də uğurlar qazanmağa imkan verəcək!

**Əbülfət QASIMOV,**
**"Azərbaycan Ordusu"**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Təmas xəttində monitorinq keçirilib

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq aprelin 27-də Goranboy rayonunun Zeyvə kəndi yaxınlığındakı qoşunların təmas xəttində monitorinq keçirilib.

Monitorinqi Azərbaycan tərəfdən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anjey Kasprşik, səhra köməkçiləri Yevgeni Şarov və Saymon Tiller keçiriblər.

Təmas xəttinin qarşı tərəfində isə monitorinqi ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Jiri Aberle və Piter Svedberq keçiriblər.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozmuşlar

***.26 aprel 2015-ci il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 45 dəfə pozub.

Goranboy rayonunun Talış, Tapqaraqoyunlu, Gülüstan, Ağdam rayonunun Şuraabad, Sarıcalı, Cəvahirli, Şirvanlı, Şıxlar, Yusifcanlı, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qorqan, Qaraxanbəyli, Aşağı Seyidəhmədli, Aşağı Veysəlli kəndləri yaxınlığında, həmçinin Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərindən Silahlı Qüvvələrimizin mövqeləri atəşə məruz qalıb.

Düşmən cavab atəşi ilə susdurulub.

***27 aprel 2015-ci il.***

Erməni silahlı bölmələri Tərtər rayonunun Göyarx, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Seyidəhmədli kəndləri yaxınlığında, həmçinin Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərindən Silahlı Qüvvələrimizin mövqelərini atəşə tutub.

Düşmən cavab atəşi ilə susdurulub.

***28 aprel 2015-ci il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 74 dəfə pozub.

Ermənistan Respublikasının İcevan rayonunun Paravakar kəndində yerləşən mövqelərdən Ağstafa rayonunun Köhnəqışlaq kəndində və Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərindən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Goranboy rayonunun Talış, Tapqaraqoyunlu, Gülüstan, Tərtər rayonunun Çiləbürt, Göyarx, Ağdam rayonunun Kəngərli, Qaraqaşlı, Şıxlar, Sarıcalı, Novruzlu, Yusifcanlı, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Horadiz, Qaraxanbəyli, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərindən Silahlı Qüvvələrimizin mövqeləri atəşə məruz qalıb.

Düşmən cavab atəşi ilə susdurulub.

*“Vətənə, xalqa və dövlətə xidmət ömrümüzün mənasıdır”*

# İlk atəşlə hədəfləri məhv etdilər

***Əlahiddə Ümumqoşun Ordusunun 2015-ci tədris ili üçün təsdiq olunmuş döyüş hazırlığı planına uyğun olaraq, hərbi qulluqçular arasında atıcılıq birinciliyi keçirilib.***



Komandaların cəlb edildiyi yarışa başlamazdan əvvəl Əlahiddə Ümumqoşun Ordusunun fiziki hazırlıq və idman bölməsinin rəisi zabit Vahid Məmmədov birinciliyin məqsəd və şərtlərini, o cümlədən təhlükəsizlik qaydalarına ciddi əməl etməyi şəxsi heyətin nəzərinə çatdıraraq iştirakçılara uğurlar arzuladı. Ən yaxşı atıcı və komandaları müəyyən etmək məqsədi ilə təşkil olunan birincilikdə 3 müxtəlif silahdan - 9 mm-lik PM tapançasından, avtomat silahından və snayper tüfəngindən atışlar keçirildi.

Atıcılıq birinciliyində təyin edilmiş hədəfləri məhv edənlər qalib gəldilər. Qalib komandalar müəyyən edildikdən sonra fərdi hesabda 9 mm-lik PM tapançası üzrə 1-ci yerə kapitan Elimdar Eminov, 2-ci yerə baş leytenant Elçin İsrayılov, 3-cü yerə isə mayor Araz İbrahimov layiq görüldülər. Avtomat silahı üzrə 1-ci yerə gizir Orman Şirməmmədli, 2-ci yerə baş leytenant Rauf Mustafayev, 3-cü yerə baş leytenant Samir Şirəliyev yiyələndilər. Snayper tüfəngindən atışlar zamanı əsgər Asif Məmmədov, müddətdən artıq həqiqi hərbi xidmət qulluqçularından çavuş Elvin Yusifov, kiçik çavuş Azər Ağayev müvafiq olaraq 1-ci, 2-ci və 3-cü yerləri tutdular. Qalib atıcılar ənənəyə uyğun olaraq Əlahiddə Ümumqoşun Ordusunun Komandanlığı tərəfindən fəxri fərman və qiymətli hədiyyələrlə mükafatlandırıldılar.

Göründüyü kimi, hərbi qulluqçuların yüksək atıcılıq vərdişlərinin əsas meyarı onların döyüşdə düşməni ilk atəşlə məhv etməyi bacarmalarıdır. Deməli, bu atıcılıq birinciliyində hədəfi dəqiq nişan alaraq ilk atəşlə vuranlar real döyüşlərdə də düşmənə layiqli cavab verəcəklər.

**Nəriman NƏCƏFOV,**
**Naxçıvan**

# Vətənin mətin müdafiəçiləri

"N" hərbi hissəsində təsdiq olunmuş döyüş hazırlığı planına əsasən, məqsədyönlü tədbirlər həyata keçirilir. Ordu həyatında baş verən dəyişikliklər, əsgər və zabitlərin sosial-məişət şəraitinin yaxşılaşdırılması hərbi xdmətdə olan gənclərin qələbə əzmini daha da artırır.



- Əsas məqsəd müasir texnika və silahlara yiyələnməklə, torpaqlarımızın azadlığı uğrunda döyüşlərə hazır olmaqdır, - deyən zabit Elşən Vəliyev bildirir ki, həyata keçirilən tədbirlər ordumuzun döyüş potensialının artırılmasına xidmət edir.

Vətən torpaqlarının düşməndən azad edilməsi qarşımızda duran əsas vəzifədir. Bu vəzifənin yerinə yetirilməsi üçün artilleriyaçıların fəailiyyəti də təqdirəlayiqdir. Onlar müharibədə artilleriya qüvvələrinin nəyə qadir olduqlarını yaxşı dərk edirlər. Buna görə də hərbi hissədə taktiki-texniki və ictimai-siyasi hazırlıq məşğələlərinin gücündən yaradıcılıqla istifadə olunur.

Bu günlərdə təlim mərkəzində Silahlı Qüvvələrin artilleriya hərbi hissələrinin "Ən yaxşı kəşfiyyat taqımı və komandir idarəetmə heyəti" adı uğrunda keçirilən yarış da artilleriyaçıların yüksək döyüş hazırlığını nümayiş etdirdi. Yarışa qoşulanların nəzəri, praktiki bilikləri təcrübəli zabitlər tərəfindən yüksək qiymətləndirildi. Fərdi qrup normativləri yerinə yetirildi. Mayor Muraz Sadıqov bildirdi ki, yarışların keçirilməsi ənənə halını alıb. Məqsədimiz gənc artilleriyaçılara yüksək döyüş qabiliyyəti aşılamaqdır.

Yarışda fərqlənən kəşfiyyat manqasının komandiri kiçik çavuş Ceyhun Məmmədli deyir:

- Bütün uğurlarımıza görə təcrübəli komandirlərimizə borcluyuq. Artıq biz artilleriyanın sirlərini öyrənmişik və lazımi tapşırıqları yerinə yetiririk. Müxtəif yarışlarda fəal iştirak etməklə, yüksək göstəricilərə nail oluruq.

Əsgərlər Vüqar Əmirli, Asim Babaverdiyev, İsmət Ağayev, Telman Abbasov, müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu Fazil Məhəmmədəliyev, kiçik çavuş Orxan Quliyev və başqaları da yarışda fərqləndilər.

"Ən yaxşı komandir idarəetmə heyəti" adına baş leytenant Qaşqay Bağırovun komandirlik etdiyi heyət layiq görüldü. Heyət üzvləri Nuran Fərmanzadə, Həsən Həsənli, Vüsal Əlizadə, Fikrət Aslanov, Elvin Yahyayev, Cabbar Cəfərov öhdələrinə düşən vəzifələrə layiqincə əməl etdilər.

Zabit Qaşqay Bağırova görə, bu yarışlar əsgərlərin dərin maragına səbəb olmaqla, onları ixtisaslarını daha dərindən öyrənməyə sövq edir.

Kiçik çavuş Orxan Quliyev silahdaşları adından ürək sözlərini belə ifadə etdi:

- Zəngin hərb tariximiz var. Artilleriya sahəsində məşhur general Əlağa Şıxlinskinin xidmətləri dünyada məşhurdur. Biz öz ata-babalarımızın, hərb xadimlərimizin yolunu inamla davam etdirəcəyik.

**Mübariz MUSAOĞLU,**
**"Azərbaycan Ordusu"**

# Hərbi qulluqçularımız Moskva şəhərinə yola salınıb




***Faşizm üzərində qələbənin 70 illiyinə həsr olunmuş təntənəli paradda iştirak etmək üçün Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularından ibarət qrupu Moskva şəhərinə yola salınıb.***

Yolasalma mərasimində iştirak edən yüksək rütbəli zabitlər onlara Vətənimizi layiqincə təmsil etməyi tövsiyə edərək hərbi qulluqçulara uğurlar arzulayıblar.

Polkovnik İlqar Lətifov bildirib ki, Böyük Vətən müharibəsi illərində Azərbaycan xalqı həm ön, həm də arxa cəbhədə böyük qəhrəmanlıq və şücaət göstərib. Qısa müddətdə soydaşlarımızdan ibarət olan milli atıcı diviziyalar yaradılmışdı. 1941-1945-ci illərdə Azərbaycanın 650 min vətəndaş cəbhəyə yollanmışdı. Azərbaycan diviziyaları Qafqazdan Berlinə qədər şərəfli döyüş yolu keçmişdi. Həmvətənlərimizin 130 nəfər (onlardan 43 nəfəri azərbaycanlıdır) Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüş, 30 nəfəri "Şöhrət" ordeninin hər üç dərəcəsi ilə təltif edilmişdi. Azərbaycandan olan 170 min əsgər və zabit isə SSRİ-nin müxtəlif orden və medalları ilə təltif olunmuşdu.

Polkovnik əminliklə vurğulayıb ki, hərbi qulluqçularımız Moskva şəhərində keçiriləcək paradda müstəqil Vətənimizi layiqincə təmsil edəcəklər.

**Ceyhun CƏFƏRLİ,**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan Respublikası Silahlı Qüvvələrinin şəxsi heyəti ilə ictimai-siyasi hazırlıq sistemində keçirilən dərs

**Mövzu:** Xalqımızın qəhrəmanlıq ənənələri. Azərbaycan övladları II Dünya müharibəsində.

**Məqsəd:** *İkinci Dünya müharibəsi haqqında tarixi həqiqətləri şəxsi heyətə çatdırmaq, faşizm üzərində qələbədə Azərbaycan xalqının rolu barədə onlara məlumat vermək hərbi qulluqçuları hərbi vətənpərvərlik, qəhrəmanlıq ruhunda tərbiyə etmək.*

**SUALLAR:**

**1. İkinci Dünya müharibəsində xalqımızın qəhrəmanlıq nümunələri.**

**2. Faşizm üzərində qələbədə Azərbaycanlı partizanların rolu.**

## İkinci Dünya müharibəsində xalqımızın qəhrəmanlıq nümunələri

İkinci Dünya müharibəsi illəri bəşəriyyətin XX əsrdə üzləşdiyi ən ağır və dəhşətli dövr olmuşdur.

1941-ci il iyunun 22-də faşistlər Sovet İttifaqına hücum etdi. Bununla da Sovet xalqları İkinci Dünya müharibəsinə qatıldı. Müharibə bu xalqlar tərəfindən xilaskar, ədalətli, Vətən müharibəsinə çevrildi. Müharibə ümumxalq xarakteri daşıyırdı. Sovet İttifaqının bütün xalqları, o cümlədən Azərbaycan xalqı Vətən uğrunda müharibəyə başladı.

Faşistlərin Şərq siyasətində Qafqaza, o cümlədən Azərbaycana xüsusi diqqət yetirilirdi. Rozenberqin başçılığı ilə təşkil edilən Şərq İşləri üzrə Nazirliyin nəzdində olan strukturlardan biri Qafqaz Komissarlığı idi. Hələ 1941-ci il aprelin 29-da yaradılan Oleburq iqtisadi qərargahı tərəfindən təsis edilmiş planda Qafqazın, ələlxüsus Bakının işğalı mərkəzi yer tuturdu.

Azərbaycan hərbi əməliyyat meydanına çevrilməsə də, müharibənin əvvəlindən axırınadək bütün maddi və mənəvi sərvətləri, insan qüvvəsi ilə faşizmə qarşı müharibəyə cəlb edildi.

Müharibənin ilk günlərində Azərbaycanda 4 mindən çox oğlan və qız faşizmə qarşı vuruşmaq üçün könüllü surətdə cəbhəyə getməkdən ötrü hərbi komissarlıqlara müraciət etdi. Avqusta qədər təxminən 123 min nəfər xalq qoşunu dəstələrinə yazıldı.

1941-ci ilin sonunda xalq qoşunu dəstələrində 187 min nəfər döyüşçü vardı. Onlardan 30 min nəfərdən çoxu qadınlar idi.

1941-1945-ci illərdə Azərbaycanda Sovet ordusu sıralarına 650 min nəfərədək səfərbər edilib. Onlar da sabiq SSRİ məkanında yaşayan digər xalqların nümayəndələri ilə çiyin-çiyinə faşizmə qarşı savaşda iştirak etdilər.

Müharibənin ən ağır illərində azərbaycanlı əsgər və zabitlər od, alov püskürən cəbhələrdə, o cümlədən, Moskva, Leninqrad, Kiyev, Stalinqrad, Ukrayna, Belarusiya, Pribaltika respublikaları uğrunda döyüşlərdə cəsarətlə vuruşmuş, faşist ordu hissələrinə mətanətlə müqavimət göstərmiş, onların hərbi texnikasını və canlı qüvvəsini məhv etmiş, işğal edilmiş yaşayış məntəqələrinin azad edilməsində, Berlinin süqutunda fəal iştirak etmiş, bu yolda çoxları ölümləri ilə ölümsüzlüyə, əbədiyyətə qovuşmuşlar.

Azərbaycanlılar 1941-ci ilin payızında Leninqrad şəhərinin müdafiəsi uğrunda döyüşlərdə ön cəbhədə dayanmış, bütün ölkə vətəndaşları ilə çiyin-çiyinə faşist ordusuna cəsarətlə müqavimət göstərmiş, əhalinin təhlükəsizliyini qorumuşlar. Təyyarəçi Hüseynbala Əliyev Leninqradı düşmənin hava hücumundan qoruyarkən 17 ölümcül yara alsa da, təyyarəsini yerə endirə bilmişdi. O, göstərdiyi şücaətə görə ölümündən sonra yüksək mükafata - "Lenin" ordeninə layiq görüldü. Moskva, Leninqrad və Stalinqrad ətrafında döyüşlərdə azərbaycanlılar düşmənin çoxsaylı canlı qüvvə və güclü hərbi texnikası ilə üz-üzə dayanmış, faşist ordusuna qarşı irimiqyaslı və dağıdıcı hərbi əməliyyatlarda iştirak etmişdilər.

Moskva uğrunda döyüşlərin ən ağır günlərindən biri olan 8 dekabr 1941-ci ildə paytaxtın şimalında yerləşən Novqorod vilayətinin Pustinka kəndi yaxınlığında döyüşlərdə İsrafil Məmmədov komandiri olduğu dəstənin 20 nəfər döyüşçüsü ilə 400 nəfərdən çox düşmən qüvvəsinin 9-10 saat ərzində aramsız hücumlarını dəf edərək mövqelərini daha da möhkəmləndirmişdi. Bu döyüşdə İsrafil Məmmədov özü 70-dən çox faşisti məhv etdiyi üçün ona dekabrın 11-də Sovet İttifaqı Qəhrəmanı fəxri adı verildi. İsrafil Məmmədov bu yüksək ada layiq görülmüş ilk azərbaycanlı idi.

1941-ci ilin noyabrında Moskvanın müdafiəsinə göndərilən Bakı zenit artilleriyası alayı düşmənin 40-a qədər təyyarəsinin yarıdan çoxunu məhv etmiş, qalanlarını isə Moskva səmasına çatmadan geriyə dönməyə məcbur etmişdi. Moskva uğrunda döyüşlərdə 1000 nəfərdən çox Azərbaycan vətəndaşı iştirak etmiş və "Moskvanın müdafiəsinə görə" medalı ilə təltif edilmişdir. Bunların arasında tank alayı komandiri general Həzi Aslanov, polkovnik Yaqub Quliyev, mayor Muxtar Süleymanov, kapitan İsrafil İsmayılov, mayor Əhəd Şəmsizadə, leytenant Müseyib Allahverdiyev, leytenant Məmmədrəsul Paşayev, kiçik leytenant Pərviz Tağızadə, serjant Camal Sədrəddinov, pulemyotçu İdris Vəliyev, sıravi Rəhim Kərimov, snayper Ziba Qəniyeva, tibb bacısı Aliyə Rüstəmbəyova və digərləri olmuşlar.

Stalinqradın müdafiəsində Baloğlan Abbasovun snayperlər dəstəsi və Həzi Aslanovun tank alayı xüsusi fəallıq göstərmiş, düşmənə ağır zərbələr endirmişdilər. Döyüşlərdə böyük qəhrəmanlıq göstərdiklərinə görə hər iki azərbaycanlı Sovet İttifaqı Qəhrəmanı fəxri adına layiq görülmüşdülər. Həzi Aslanov Brezna çayını keçərək Pleseni şəhərinin və 508 yaşayış məntəqəsinin azad edilməsində xüsusi xidmətlərinə görə ikinci dəfə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdü.

Şimali Qafqaz uğrunda döyüşdə Qafur Məmmədov və İdris Süleymanov göstərdikləri igidliyə görə Sovet İttifaqı Qəhrəmanı fəxri adına layiq görülmüşdülər. Ukraynanın azad edilməsində böyük xidmətlərinə görə M.Məhərrəmova, M.Ələkbərova, Ə.Məmmədova və F.Səfərova Sovet İttifaqı Qəhrəmanı fəxri adı verilmişdi.

İkinci Dünya müharibəsinin başlanması ilə əlaqədar olaraq baş komandan Stalinin 1941-ci ilin 18 oktyabr tarixli əmrinə əsasən, azərbaycanlılardan ibarət 77-ci dağatıcı diviziyası, 223-cü, 396-cı, 402-ci və 416-cı milli atıcı diviziyaları yaradıldı və onlar Zaqafqaziya hərbi dairəsində yerləşdirilmiş 44-cü, 45-ci və 46-cı orduların tərkibinə daxil edildilər.

Azərbaycanın 77-ci milli atıcı diviziyası müharibəyə 1941-ci ilin dekabrında 51-ci ordunun tərkibində Kerç-Feodosiya desant əməliyyatı ilə başladı. Diviziya Kerç, Taman, Novorossiysk, Mozdok, Mineralni Vodı uğrunda gedən döyüşlərdə fərqlənmiş, Simferopolun azad edilməsində göstərdiyi qəhrəmanlığa görə "Suvorov" ordeni ilə təltif edilmişdi. Sevastopolun azad edilməsi uğrunda Sapun-Qorodan başlanan döyüşlər 10 gün davam etdi, qələbə bayrağını 1943-cü ilin 7 mayında serjant Əbdüləziz Qurbanov sancdı.

Simferopol şəhəri düşməndən azad edildikdən sonra döyüşlərdə ən fəal iştirak edən 77-ci diviziyaya "Simferopol diviziyası" fəxri adı verildi. Bütövlükdə Krımın azad edilməsinə görə diviziyanın 3140 əsgər və zabiti orden və medallara layiq görüldülər. Həmin əməliyyatlarda 77-ci milli diviziyanın rabitə batalyonunun komandiri kapitan İsmayıl İbrahimov xüsusilə fərqləndi.

77-ci diviziya 1944-cü ilin iyulundan başlayaraq Pribaltikada və Rusiyada gedən döyüşlərdə fəal iştirak etdiyinə görə, onun yüzlərlə əsgər və zabiti orden və medallarla təltif edildi, 8 döyüşçü Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldü. Ümumilikdə 77-ci Simferopol dağ-atıcı Azərbaycan milli diviziyası döyüş əməliyyatlarına Krımdan başlamış və 11000 kilometrə yaxın məsafəni qət edərək, müharibəni Berlində qurtarmışdı. Diviziyanın döyüş yollarında Heybət Heybətov,Tərlan Əliyarbəyov, Mahmud Əbilov, Məmmədbağır Bağırov, Hacıbaba Zeynalov, Hüseyn Məmmədov kimi generallar yetişmiş və onların hər biri böyük sərkərdəlik məharəti göstərmişdilər.

> **Ümummilli lider Heydər ƏLİYEV:**
>
> *"Zaman keçdikcə, illər ötdükcə bu qələbənin mənası, mahiyyəti və tarixi əhəmiyyəti daha da aydın olur, bütün dünya üçün daha da açılır".*

223-cü milli atıcı diviziyanın döyüş yolu 1942-ci ilin yayından Şimali Qafqazdan başlayaraq, Ukrayna və Moldoviyadan, Bolqarıstan, Yuqoslaviya və Macarıstandan Avstriyanın paytaxtı Vyanaya qədər uzanmışdı. Diviziya 1945-ci il mayın 9-da Çexoslovakiyaya daxil olmuş və mayın 12-də Çeski Budlvitse şəhərində Amerika ordusunun hərbi hissələri ilə görüşmüşdü. Diviziyanın əsgər və zabitlərindən 3483 nəfər orden və medallarla təltif edilmişdi.

1942-ci ilin fevralından 1943-cü ilin iyununa qədər Heybət Heybətov diviziyanın komandiri olmuşdu. Onun komandanlığı altında diviziya Mozdokdan Millerova şəhərinə qədər döyüş yolu keçmişdi.

General Heybət Heybətov müharibə illərində general rütbəsi almış Həzi Aslanov və Yaqub Quliyev ilə yanaşı üçüncü azərbaycanlı generalıdır.

Tərkibi 90 faiz azərbaycanlılardan ibarət olan 402-ci milli atıcı diviziya 44-cü ordu tərkibində Şimali Qafqazda Terek çayının sağ sahilində Qroznı-Mozdok istiqamətində ağır döyüşlərdə iştirak etmiş və bu döyüşlərdə fərqlənmişdi. Həmin döyüşlərdə 833-cü alayın komandiri mayor Akim Abbasov və 840-cı alayın döyüşçüləri qəhrəmanlıq nümunələri göstərmişdilər. 1944-ci ilin əvvəlində 402-ci milli diviziyanın sıravi heyətinin 75 faizi, komanda heyətinin 50 faizi azərbaycanlılardan ibarət idi.

416-cı milli atıcı diviziyanın tərkibinin, xüsusi ilə də komanda heyətinin 92 faizi azərbaycanlılardan ibarət idi. 1942-ci ilin payızında diviziya Şimali Qafqazda 44-cü ordu, az sonra 58-ci ordu tərkibində Mozdok istiqamətində döyüşlərə başladı. Taqanroq şəhərinin azad edilməsində fəal iştirakına görə, "Taqanroq diviziyası" adına layiq görüldü.

1943-cü ilin iyulundan sonra diviziyaya general-mayor Heybət Heybətov komandanlıq etmişdir. Azərbaycan hökumətinin ardıcıl köməyi nəticəsində diviziya müharibənin sonuna qədər öz milli tərkibini saxlaya bildi. Diviziya Qafqazdan Berlinə kimi müzəffər döyüş yolu keçmiş, düşmənin 23 minə yaxın əsgər və zabitini məhv etmiş, 5474 nəfər əsir götürmüş, onların istifadəsində olan çoxlu döyüş texnikasını işlək vəziyyətdə qənimət kimi ələ keçirmişdi. Diviziyanın 14396 nəfər əsgər və komandiri SSRİ-nin orden və medalları ilə təltif edilmişdi. Komandir və əsgərlərin bir çoxuna xarici ölkələrin orden və medalları verilmişdi.

416-cı diviziyanın 1945-ci ildəki döyüş fəaliyyəti xüsusilə diqqətəlayiqdir. Diviziya 1945-ci il fevralın 3-də Oder çayını keçərək Kyustrin şəhərinin alınmasında iştirak etmişdir. Berlin üzərinə həlledici hücuma başlayan diviziyanın 1373-cü alayı Berlinin müdafiə xəttini yararaq, aprelin 21-də şəhərin kənarına daxil oldu. Mayın 3-də marşal Georqi Jukov başda olmaqla birinci Belarusiya cəbhəsinin hərbi şurasının üzvləri, 416-cı diviziyanın Berlində keçirdiyi döyüş əməliyyatlarının şahidi olmuş, onun xidmətlərinə yüksək qiymət vermişdilər.

Diviziyada xidmət etmiş zabit və əsgərlərdən 5 nəfərinə Sovet İttifaqi Qəhrəmanı fəxri adı verilmişdi. Diviziyanın özü Qırmızı Bayraq və II dərəcəli Suvorov ordeni ilə təltif edilmiş, onun qələbələri şərəfinə Taqanroq şəhərinin yaxınlığındakı Sanbek yüksəkliyində xatirə ansamblı yaradılmış, Taqanroqda, Kiyevdə, Nikolayev və Odessa şəhərlərində, həmçinin Moskvada diviziyaya həsr olunmuş şöhrət muzeyləri təşkil edilmişdi.

## Faşizm üzərində qələbədə azərbaycanlı partizanların rolu

Fransanın cənubunda gedən partizan hərəkatında 1000 nəfərdən çox, Yuqoslaviyadakı partizanların zərbə briqadasında 600 nəfərdən çox azərbaycanlı vuruşmuşdu.

1943-cü ilin yayında Krımda fəaliyyət göstərən partizan dəstələri arasında Azərbaycan partizan dəstəsi də var idi. Sonrakı illərdə Belarusiya torpaqlarında və Baltikyanı respublikalarda da azərbaycanlı partizanlar düşmənə qarşı mübarizədə geniş miqyasda iştirak etmişlər.

Azərbaycanlılardan Ukrayna torpaqlarında faşistlərə qarşı mübarizədə 5000 nəfərə qədər, Belarusiya torpaqlarında isə 1000 nəfərə qədər döyüşçü partizan dəstələrində fəal iştirak etmişlər.

1943-cü ildə faşistlərin Stranse əsir düşərgəsindən İtaliyaya, Triyestə və Yuqoslaviyaya köçürdüyü Sovet hərbi əsirləri içərisində xeyli azərbaycanlı var idi. Onlar gizli antifaşist təşkilatı yaratmışdılar. Təşkilatın rəhbərliyinə Mehdi Hüseynzadə, Mirdamət Seyidov, Cavad Həkimli və başqaları daxil olmuşdular. Onların çoxu 1944-cü ilin fevralında əsirlikdən qaçaraq partizanlara qoşulmuş, İ.Qradnik adına İtalyan - Yuqoslav partizan diviziyası tərkibində əlahiddə rota təşkil etmişdilər.

Mehdi Hüseynzadə Yuqoslaviya Xalq Azadlıq Ordusunun 11-ci korpusu qərargahı yanında Haribaldi adına xüsusi kəşfiyyat-təxribat qrupuna rəhbərlik etmiş, fövqəladə qəhrəmanlıqlar göstərmişdi. Həmin qrupa M.Hüseynzadə ilə yanaşı, Mirdamət Seyidov, Ənvər Məmmədov, Tağı Əliyev və digər soydaşlarımız daxil idi. Faşistlərə qarşı döyüşlərdə fərqlənən 50-yə qədər Azərbaycan övladı Yuqoslaviyanın orden və medalları ilə təltif olunmuşdu.

1942-ci ilin yazında Polşadakı hərbi əsir düşərgələrindən birində azərbaycanlıların gizli antifaşist təşkilatı yaradılmışdı. Ona zabit H.Qiyasbəyov və M.Məmmədov başçılıq edirdilər. Bu təşkilatın köməyi ilə bir qrup əsir düşərgədən qaçaraq Polşa partizanlarına qoşulmuşdu.

1944-cü il avqustun 17-də Rodez şəhəri fransız və azərbaycanlı partizanlar tərəfindən faşistlərdən azad edilmişdi. Bu əməliyyatda azərbaycanlılara gizli antifaşist təşkilatın üzvü Hüseynrza Məmmədov başçılıq edirdi. Rodez zəhmətkeşləri qəhrəmancasına həlak olmuş azərbaycanlı vətənpərvərlərin xatirəsini əziz tutaraq, onları böyük matəm mərasimi ilə Rodez qəbiristanlığında dəfn etdilər. Matəm mitinqində çıxış edən polkovnik Rişard fransız vətənpərvərlərinin Sovet xalqına qarşı məhəbbətlə dolu fikir və duyğularını bu sözlərlə ifadə etmişdi: "Fransa, azərbaycanlı hərbi əsgərlərin igidliyini unutmayacaqdır. Övladlarımız, nəvə və nəticələrimiz də biləcəklər ki, uzaq Azərbaycandan olan dostlarımız da Fransanın faşizmdən azad edilməsi yolunda canlarını əsirgəməmişlər". Qardaşlıq məzarı üzərinə qoyulan baş daşına Azərbaycan xalqının qəhrəman oğullarının şanlı adları həkk edildi.

1941-45-ci illər müharibəsində tarixi qələbədən 70 il keçir. Azərbaycanlılar bu müharibədə istər ön, istər arxa cəbhədə böyük fədakarlıqlar göstəriblər. Azərbaycan neftinin bu Qələbənin təmin olunmasında mühüm rolu olub.

Müharibəyə yollanan 650 min Azərbaycan vətəndaşının 420 mini geri qayıtmayıb. Göstərdikləri misilsiz şücaətin müqabilində 43 azərbaycanlı Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb. Ölkəmizdə 1941-45-ci illər müharibəsi qurbanlarının xatirəsi daim əziz tutulur, dövlətin müharibə veteranlarına diqqət və qayğısı yüksək səviyyədədir.

Veteranlara ikinci həyatı isə öz diqqət və qayğısı ilə ulu öndər Heydər Əliyev bəxş etdi. Onun 1993-cü ildə Azərbaycanda hakimiyyətə qayıdışından sonra veteranlara layiq olduqları hörmət göstərilməyə başladı. "Tarix bu gün də bilməlidir ki, İkinci Dünya müharibəsində Azərbaycan Respublikasının xidməti, fəaliyyəti, rolu çox böyük olmuşdur", - deyən Heydər Əliyev müharibə veteranlarını "xalqımızın qızıl fondu" adlandırırdı. Ümummilli liderin veteranlara böyük sevgi və qayğısını Prezident İlham Əliyev qədirbilənliklə davam etdirir. Dövlət başçısı 2003-cü ildən başlayaraq hər il müharibə veteranları ilə bağlı yeni qərarlar qəbul edir, sərəncamlar verir.

**Müdafiə Nazirliyi**
**Mənəvi-Psixoloji**
**Hazırlıq və İctimaiyyətlə**
**Əlaqələr İdarəsi**

Qələbə - 70

# “Xalq və ordu birdir”

## Müdafiə Nazirliyi və Masallı rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə bədii-təşviqat marafonu çərçivəsində növbəti tədbir keçirilib





***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə təsdiq edilmiş 1941-1945-ci illər müharibəsində Qələbənin 70 illik yubileyinin təşkili və keçirilməsi ilə bağlı tədbirlər planı və Müstəqil Dövlətlər Birliyi Hökumət Başçıları Şurasının qərarına əsasən, Müdafiə Nazirliyinin yerli icra hakimiyyəti orqanları ilə birgə "Xalq və ordu birdir" devizi altında keçirdiyi ümumrespublika bədii-təşviqat marafonu uğurla davam etdirilir.***

Mart ayının əvvəllərində Gəncə şəhərində start götürmüş marafon çərçivəsində Ağcabədi və Masallı rayonlarında da teatrlaşdırılmış kütləvi vətənpərvərlik mərasimləri təşkil olunub. On minlərlə yerli sakinin, hərbi qulluqçunun, veteran və qonaqların iştirak etdiyi həmin tədbirlər xalq ilə ordunun monolit birliyinin, eləcə də Silahlı Qüvvələrimizin güc və qüdrətinin nümayişinə çevrilib, tədbir iştirakçıları Qarabağ uğrunda Ali Baş Komandanın hər bir əmrinə hər an hazır olduqlarını bəyan ediblər.



Masallı rayonunda keçirilən tədbirin iştirakçıları öncə Heydər Əliyev parkında xalqımızın ümummilli liderinin abidəsini ziyarət edərək, qarşısına gül dəstələri qoyublar. Parkın ərazisində Müdafiə Nazirliyinin təşkil etdiyi "Heydər Əliyev və Azərbaycan veteranları" foto-sərgisi ilə tanış olublar.

Kütləvi vətənpərvərlik mərasimi açıq elan edildikdən sonra Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin hərbi orkestrinin müşayiəti ilə bütün iştirakçılar Azərbaycan Respublikasının Dövlət Himnini ifa edib.

Müdafiə Nazirliyinin zabiti, polkovnik Abdulla Qurbaninin ssenarisi və rejissorluğu ilə hazırlanmış kütləvi tamaşada 300 nəfərdən çox incəsənət xadimi, hərbçi, birləşmiş özfəaliyyət kollektivlərinin üzvləri iştirak ediblər. Azərbaycanın, eləcə də Masallı rayonunun hərbi şöhrət tarixinə ekskurs edilib, qəhrəmanlar xatırlanıb, hərbi vətənpərvərlik mahnı, marş və rəqsləri ifa edilib.

Mərasim iştirakçıları 1945-ci ildə Reyxstaq üzərinə sancılmış rəmzi Qələbə bayrağını və Azərbaycan milli diviziyalarının döyüş bayraqlarını meydana gətirən Böyük Vətən müharibəsi veteranlarını alqışlarla qarşılayıblar. Veteranlar Azərbaycan əsgərinə müraciət edərək onların da üçrəngli bayrağımızı tezliklə Xankəndi, Şuşa, Laçın və işğal altında olan digər əzəli və əbədi Azərbaycan torpaqlarında dalğalandırmalarını arzulayıblar.

Qeyd olunub ki, 1941-1945-ci illər müharibəsində faşizm üzərində qələbənin qazanılmasında digər amillərlə yanaşı, xalq və ordunun birliyi də müstəsna rol oynayıb. Odur ki, müharibə şəraitində yaşayan, ərazisinin bir hissəsi işğal edilmiş ölkəmizdə bu gün də xalq və ordu yekdil olmalı və "Hər şey ordu üçün, hər şey Qələbə üçün!" şüarı hamını bir məqsəd, bir amal uğrunda birləşdirməlidir.



Mərasimdə Azərbaycan Silahlı Qüvvələrinin bu gün Cənubi Qafqazda ən güclü, qüdrətli ordu olması, Azərbaycan əsgərinin son aylarda cəbhə bölgələrində düşmənin kəşfiyyat-təxribat qruplarının qarşısını mərdliklə alması, irimiqyaslı gündüz və gecə taktiki təlimlərindən mülki əhalinin də böyük qürur duyduğu vurğulanıb.

Övladları Vətən torpaqlarının keşiyində öz əsgəri borcunu şərəflə yerinə yetirən əsgər valideynlərinə Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təşəkkür və təbrikləri çatdırılıb. Səngərdən qısa müddətli məzuniyyətə gəlmiş əsgərlərin isə gözlənilmədən valideynləri ilə qəfil görüşü tamaşaçılarda duyğulu anlar yaşadıb.

Masallı rayon İcra Hakimiyyətinin başçısı Rafil Hüseynov çıxışında bildirib ki, ölkə rəhbərinin sərəncamı ilə təsdiq edilmiş 1941-1945-ci illər müharibəsində Qələbənin 70 illik yubileyinin təşkili və keçirilməsi ilə bağlı tədbirlər planından irəli gələn vəzifələr ölkəmizin hər yerində olduğu kimi, Masallı rayonunda da uğurla həyata keçirilir. Marafonun Masallıda keçirilməsi isə rayon əhalisinin böyük ruh yüksəkliyinə səbəb olub.

Azərbaycan Respublikası Veteranlar Şurası sədrinin birinci müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov Müdafiə Nazirliyinin yerli icra hakimiyyəti orqanları ilə birgə keçirdiyi silsilə tədbirlərin əhəmiyyətindən danışıb və bir qrup rayon fəalına "Veteran həmrəyliyi" medalını təqdim edib.

Tədbir Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin dediyi "Bizim bayrağımız tezliklə Xankəndidə, Şuşada, Laçında və digər işğal edilmiş torpaqlarımızda dalğalanacaqdır. Biz Qələbə gününü görəcəyik" sözləri və iştirakçıların birlikdə ifa etdiyi "Gələcəyik Qarabağa" mahnısının sədaları altında başa çatıb.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

Əlağa Şıxlinski - 150

## Hərbi dənizçilər ölməz sərkərdənin xatirəsini yad ediblər

***Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamı ilə görkəmli sərkərdə Əlağa Şıxlinskinin 150 illiyi ölkəmizdə geniş miqyasda qeyd olunur. Zamanında "rus artilleriyasının Allahı" kimi tanınan, milli ordumuzun ilk qurucularından sayılan məşhur hərb xadiminin yubileyi ötən həftə Hərbi Dəniz Qüvvələrində də ehtiramla qeyd olunub.***



Mərmilərin uçuş məsafəsinin atış bucağından asılılığına əsaslanan "Şıxlinski üçbucağı"nın artilleriyanın "qızıl qaydası" olduğunu dönməz qürurla xatırlayaraq tədbirin keçiriləcəyi hərbi gəmiyə tələsirəm...

Yubiley tədbirini giriş sözü ilə II dərəcəli kapitan Hafiz Həsənov açdı. Sonra ümummilli liderimiz Heydər Əliyevin, şəhidlərimizin və böyük sərkərdəmizin xatirələri bir dəqiqəlik sükutla yad edildi.

III dərəcəli kapitan Mirtale Mirtalıbov çıxışında böyük sərkərdənin ömür yolundan, hərbçi taleyindən, elmi fəaliyyətindən, sərkərdəlik qabiliyyətindən söz açaraq onun böyük istedada malik ordu qurucusu kimi tanındığını və həmişə ehtiramla yad edildiyini bildirdi. Natiq qeyd etdi ki, Əlağa Şıxlinski 1918-1920-ci illərdə Qarabağda gedən döyüşlərin təşkilini və aparılmasını nəzarətdə saxlayırdı. Bu qənaəti Qarabağ ərazi komandanı Həbib bəy Səlimovun Əlağa Şıxlinskiyə ünvanladığı teleqram da təsdiqləyir: "Dağ kəndi istiqamətində irəliləyən düşmən Abdallar kəndindən vurulub çıxarıldı. Zabux çayının o tayına qədər qovuldu. Bizimkilər Yarma kəndini alıb Keçəl dağına gedən yolu Abdallara qədər təmizlədilər. Cavanşir alayını yenidən təşkil etmək üçün Qarabağ alayından bir bölüyünü də ona birləşdirdim. Yeni təşkil etdiyimiz dağ batareyasının gücü ilə düşməni Zabux çayının o tayından da qovub çıxartdıq".

Baş leytenant İlyas Şıxlinski çıxışında böyük sərkərdənin soyadını daşıdığından qürur duyduğunu, nümunəvi xidməti ilə onun adına, ruhuna başucalığı gətirəcəyini, işğal olunmuş torpaqlarımızın azad edilməsi üçün Ali Baş Komandanın əmrinə hər an hazır olduğunu bildirdi.

Tədbirin sonunda məşhur sərkərdənin həyat və fəaliyyətindən bəhs edən sənədli film nümayiş etdirildi.

**"Azərbaycan Ordusu"**

# İlk hərbi memuarın müəllifi



***Görkəmli hərb xadimi Əlağa Şıxlinskinin 150 illik yubileyi ilə bağlı tədbirlərin biri də bu günlərdə Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivində baş tutdu. Tədbir əsas mahiyyət etibarilə dünya şöhrətli hərb aliminin ömür yolundan bəhs edən, əməkdar incəsənət xadimi Ziya Şıxlinskinin rejissorluğu ilə araya-ərsəyə gələn "Artilleriya Allahı sayılırdı" və "Yazılsın tarixə bir qızıl xətlə" sənədli filmlərin nümayişi üzərində qurulmuşdu. Tədbirdə Müdafiə Nazirliyinin Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin zabiti polkovnik Nazim Əhmədov, ehtiyatda olan general-mayor Mahmud Həmzəyev, akademik Teymur Bünyadov, Bakı Dövlət Universitetinin professoru Şirməmməd Hüseynov, Milli Məclisin deputatları - Ziyad Səmədzadə, Fəzail İbrahimov, Əhməd Vəliyev və digər ictimaiyyət nümayəndələri iştirak ediblər.***

Arxivin direktoru tarix üzrə fəlsəfə doktoru Mais Bağırov tədbiri açaraq bildirib ki, ömrünü hərb elminə bağlayan və hərbi andına hər zaman sadiqliyini xidmətində göstərən general Əlağa Şıxlinskinin həyat səhifələrinə işıq saçan sənədli filmlərə tamaşa etdikdən sonra çıxışlarımızı və söhbətimizi davam etdirəcəyik.

Filmlərin nümayişindən sonra söz alan professor Şirməmməd Hüseynov tədbir iştirakçılarının diqqətini ömrünün son günlərini yaşayan generalın hərbi memuarına - "Xatirələrim"dəki maraqlı məqamlara çəkib. "Bu memuarın işıq üzü görməsində, Azərbaycan və rus dillərində çap olunmasında Şərqin böyük filosoflarından akademik Heydər Hüseynovun xidmətləri böyük olub. Yaşadığı dövrün çətinliklərinə dərin təfəkkürü, iti ağlı və zəngin elmi istedadı ilə mərdliklə sinə gərən məşhur sərkərdə öz xatirələrini qələmə almaqla, Azərbaycanın hərb tarixində yeni səhifələr açıb. Və bu səhifələrə öz adını qızıl hərflərlə həkk edib", - deyə professor vurğulayıb.

Millət vəkili Ziyad Səmədzadə isə xalqımızın böyük oğlu Nəriman Nərimanovun iki hərbi şəxsiyyətin, təcrübəli generalların - Səməd bəy Mehmandarovun və Əlağa Şıxlinskinin müdafiəsi ilə bağlı bolşevik rəhbəri Leninə ünvanladığı məktubundan danışıb. O bildirib ki, 1920-ci il Gəncə üsyanından sonra Cümhuriyyət ordusunun rəhbərləri, o cümlədən, hərbi nazir S.Mehmandarov və onun müavini Ə.Şıxlinski qırmızı terror təhlükəsi ilə üzləşirlər. Lakin Xalq Komissarları Sovetinin sədri Nəriman Nərimanovun məsələyə müdaxiləsi nəticəsində təhlükə onlardan sovuşur və hər iki general Moskvaya - Sovet ordu rəhbərliyinin sərəncamına göndərilir.

Akademik Teymur Bünyadov görkəmli sərkərdənin Vətəni Azərbaycana olan sonsuz məhəbbətindən, doğma ana dilinə, elinə-obasına bağlılığından geniş söhbət açıb.

Tədbirdə Müdafiə Nazirliyinin nümayəndəsi polkovnik Nazim Əhmədov qeyd edib ki, indiyədək hər iki film hərbi hissələrdə və hərbi təhsil müəssisələrində nümayiş etdirilib. "Ölkə Prezidentinin sərəncamına əsasən, Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi silsilə yubiley tədbirlərinin bu ilin sentyabrında - Qafqaz İslam Ordusunun komandanı general-leytenant Nuru Paşa ilə Əlahiddə Azərbaycan Korpusunun komandiri general Əlağa Şıxlinskinin keçirdiyi uğurlu hərbi əməliyyat nəticəsində Bakının bolşevik-daşnak qüvvələrindən azad edildiyi günlərdə yekunlaşacağı müəyyənləşdirilib", - deyə polkovnik qeyd edib.

Sonda kinorejissor Ziya Şıxlinski hər iki filmin çəkilişi zamanı ona dəstək olan insanlara minnətdarlığını çatdırıb.

**Lalə HÜSEYNOVA,
"Azərbaycan Ordusu"**

## Unutmayaq!

*1988-1994-cü illərdə Azərbaycanın bu torpaqları ermənilər tərəfindən işğal edilmişdir:*

***Dağlıq Qarabağ (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə), işğal tarixi - 1988-1994-cü illər. Sahəsi: 4400 kv.km.***
***Şərur rayonunun Kərki və Cünnüt kəndləri (17 fevral 1990) - 19 kv.km.***
***Qazax rayonunun Yuxarı Əskipara, Aşağı Əskipara, Sofulu, Bağanıs-Ayrım, Qızıl Hacılı, Barxudarlı və Xeyrimli kəndləri (1990-1992) - 75 kv.km.***
***Laçın (18 may 1992-ci il) - 1835 kv.km.***
***Kəlbəcər (3-4 aprel 1993-cü il) - 1936 kv.km.***
***Ağdam (23 iyul 1993-cü il) - 1094 kv.km.***
***Cəbrayıl (18 avqust 1993-cü il) - 1059 kv.km.***
***Füzuli (23 avqust 1993-cü il) - 1386 kv.km.***
***Qubadlı (31 avqust 1993-cü il) - 802 kv.km.***
***Zəngilan (30 oktyabr 1993-cü il) - 707 kv.km.***

**Bu torpaqları azad etmək bizim müqəddəs borcumuzdur!**

## İdman

### Atletlər kəndində 7 mindən artıq idmançı üçün bütün şərait yaradılıb



İlk Avropa Oyunları zamanı Bakıya gələn idmançıların və məşqçilərin qalması üçün tikilən Atletlər kəndi paytaxtın şimal-qərb hissəsində, Bakı Olimpiya Stadionu və Milli Gimnastika Arenasından bir qədər aralıda yerləşir.

AZƏRTAC xəbər verir ki, kompleks 10-15 mərtəbəli 13 əsas binadan ibarətdir. Bu binalarda 1042 mənzil var və ən kiçik mənzildə 3, ən böyük mənzildə isə 5 yataq otağı yerləşir. Buna əsasən demək olar ki, bir mənzildə minimum 6, maksimum 10 atlet qala bilər. Burada 7 min 878 atletin qalması üçün bütün şərait yaradılıb və artıq atletlərin qalacaqları mənzillər tam hazırdır.

### Bakıda basketbol üzrə beynəlxalq turnirin qalibi Serbiya komandası oldu



Bakıda kişilər arasında 3x3 basketbolu üzrə beynəlxalq turnirə yekun vurulub. Turnirdə Azərbaycanın "Qala", "NTD", "AzTOP", "Ulduz", "Aslanlar" komandaları ilə yanaşı, 3x3 basketbol üzrə dünya reytinqində birinci olan Serbiyanın "Novıy sad", həmçinin Rumıniyanın "Buxarest", Gürcüstanın "Tbilisi" və Ukraynanın "Old Kiyev" və "Kiyev" komandaları mübarizə aparıblar.

AZƏRTAC xəbər verir ki, finalda "Buxarest" klubuna qalib gələn "Novıy Sad" komandası turniri birinci pillədə başa vurub. Azərbaycanın "Qala" və "NTD" basketbol klubları üçüncü-dördüncü yerləri bölüşüblər.

### Vüqar Həşimovun xatirə turniri yekunlaşıb



Şəmkirdə Avropa çempionu, qrossmeyster Vüqar Həşimovun xatirəsinə həsr olunmuş ikinci beynəlxalq şahmat turniri yekunlaşıb.

AZƏRTAC xəbər verir ki, turnirin qalibi hazırkı dünya çempionu Maqnus Karlsendir. O, yekun turda Azərbaycan qrossmeysteri Rauf Məmmədovu məğlubiyyətə uğradıb və ikinci dəfə superturnirin qalibi olub.

15-ci dünya çempionu Vişvanatan Anand turnirin gümüş, amerikalı Uesli So isə bürünc mükafatını qazanıb.

### "Baku Fires" komandası "Argentina Condors"a böyük hesabla qalib gəldi



Aprelin 25-də Quba Olimpiya İdman Kompleksində "Baku Fires" komandası "Argentina Condors" klubuna 5:0 hesabı ilə qalib gəlib.

AZƏRTAC xəbər verir ki, görüşün ilk döyüşündə Murad Rabadanov (52 kq, "Baku Fires") Rikardo İbarranı ("Argentina Condors"), Nəsrəddin Məmmədov (60 kq) Brayan Nunyezi, Mixail Dauqalivets (81 kq) isə Xuan Rizo Patronu, Hacı Murtuzəliyev (91 kq-dan yuxarı) isə Fakundo Qiqlionu məğlubiyyətə uğradıb.

Digər idmançımız Pərviz Bağırovla (69 kq) döyüşməli olan Luis Alberto Veron ölkəmizə gələ bilmədiyindən boksçumuza texniki qələbə verilib.

### Avropa Oyunları üçün daha bir arena



Bakı-2015 ilk Avropa Oyunları üçün inşa edilmiş BMX stadionunda əsas işlər başa çatıb. Stadionda 2 enmə zolağı var. 1000 nəfər tamaşaçı tutumuna malik arenada yarışlar iyunun 26-28-də keçiriləcək. Arenanın oyunlara hazırlığını yoxlamaq üçün sınaq yarışı təşkil olunub. Rusiya, Almaniya və Latviyadan 13 qadın və kişi idmançı uzunluğu 358 metr olan zolaq boyunca yürüşlər həyata keçiriblər.

Oyunlarda iştirak edəcək 32 kişi və 16 qadın idmançı Avropa Velosipedçilər Birliyinin ölkələr üzrə reytinq siyahısına əsasən müəyyənləşir.

**Hazırladı:
Ə.MƏHƏRRƏMOĞLU**

Leytenant Cəbiyev Rəhman Nurəli oğluna 2014-cü ildə verilmiş zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, Akademik Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi

**Növbətçi**
mayor
Vahid MƏHƏRRƏMOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə nəşr olunur. “Azərbaycan Ordusu” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Hərbi nəşriyyatın mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 430
Nüsxə 4600